# *İrfan GÜNDÜZ:* "Azərbaycan hər zaman tolerantlığı, milli-mənəvi dəyərlərə bağlılığı ilə seçilib"

Azərbaycan hər zaman öz tolerantlığı, milli-mənəvi dəyərlərə bağlılığı ilə seçilib.

Bu fikri aprelin 20-də Türkiyə Böyük Millət Məclisinin hakim Ədalət və İnkişaf Partiyasından olan sabiq deputatı, professor İrfan Gündüz Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ilə görüşündə səsləndirib.

Görüşdə dövlət komitəsinin sədri Azərbaycanla Türkiyənin dost və qardaş ölkələr olduqlarını vurğulayaraq iki dövlət arasında müxtəlif sahələrdə, xüsusilə din sahəsində mövcud olan yüksək səviyyəli münasibətlərdən danışıb. Komitə sədri kimi ilk səfərini Türkiyəyə etdiyini xatırladan M.Qurbanlı rəhbərlik etdiyi qurumun fəaliyyəti barədə qonağa geniş məlumat verib. O vurğulayıb ki, ulu öndər Heydər Əliyev hər zaman dinə həssas yanaşıb, yeni məscidlərin tikintisinə və tarixi-dini abidələrin bərpasına böyük diqqət ayırıb. Bu gün də Prezident İlham Əliyev bu siyasəti uğurla davam etdirir. 2016-cı ilin "Multikulturalizm ili" elan edilməsinin dövlətin bu sahəyə göstərdiyi diqqətin bariz nümunəsi olduğunu deyən komitə sədri bu il çərçivəsində həyata keçirilən və keçirilməsi nəzərdə tutulan tədbirlər barədə görüş iştirakçılarını məlumatlandırıb.



Azərbaycanın iqtisadi inkişafından, ölkəmizdə dini etiqad azadlığının təmin olunmasından söz açan qonaq dövlətin dinə qayğısından və ölkəmizdəki dövlətdin münasibətlərinin yüksək səviyyədə olmasından məmnunluğunu ifadə edib. İrfan Gündüz səfəri çərçivəsində "Multikulturalizm ili" ilə bağlı Bakı və Zaqatalada keçiriləcək konfranslarda iştirak edəcəyini və gənclər üçün mühazirələr oxuyacağını deyib.

Görüşdə Gəncliyə Yardım Fondunun Himayəçilər Şurasının sədri Əhməd Tecim və dövlət komitəsinin sədr müavini Gündüz İsmayılov da iştirak ediblər.

**AZƏRTAC**